Şəhid Hürriyyət

# Şəhid Samir Hüseynovun 30 yaşı qeyd olundu



44 günlük haqq savaşımızda yağıya qarşı döyüşərək qəhrəmancasına şəhidlik zirvəsinə ucalan minlərlə qeyrətli oğullarımızdan biri də Samir Hüseynovdur. Bu günlərdə Vətən sevdalısının 30 yaşı adına layiq qeyd olundu.

Samir Əlizadə oğlu Hüseynov 1994-cü il noyabrın 15-də Lerik rayonunun Vov kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra, 2013-cü ilin yanvar ayında ordu sıralarına çağırılıb. Gəncədə yerləşən "N" saylı hərbi hissədə Vətənin keşiyində durub. 2014-cü ilin iyul ayında hərbi xidmətini başa vurduqdan sonra Rusiyaya gedərək bir müddət orada işləyib. 2016-cı ildə könüllü olaraq yenidən orduya qayıdıb və Xüsusi Təyinatlı Qüvvələrin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq işləməyə başlayıb. Vətən müharibəsi zamanı qəhrəman Samir Hüseynov Cəbrayılın, Füzulinin, Zəngilanın, Xocavəndin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. 2020-ci ildə noyabrın 10-u Şuşa istiqamətində erməni dığaların xeyli zabitini məhv edərək qeyri-bərabər savaşda şəhadətə qovuşub. Şərəfli ölümü ilə özünə ürəklərdə adidə ucaldan Samir Hüseynov ölümündən sonra dövlət tərəfindən III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", Şuşanın, Cəbrayılın, Xocavəndin, Füzulinin azadlığına görə medalları ilə təltif edilib.

**Səhifəni hazırladı: Zəfər ORUCOĞLU**